# Ağdamda bir kənd var, adı-Papravənd...

## ("Zakir Ağdamlı - 70" silsiləsindən)

Bəzi sənət adamlarımız-şair, yazıçı, rəssam, müğənni... var ki, onların əsas sənəti-peşəsi tamamilə başqa bir sahəni əhatə edir. Bu sıradan həkim-şair, hüquqşünas-yazışı, rəssam-müğənni.., bu sıranı istənilən qədər uzatmaq da olar.

Deyim ki, bu cür-ikili dünyası olan sənət adamlarının yaratdıqları əsərlər də bu və ya digər mənada fərqli olurlar, təbii ki, sözün yaxşı mənasında. Yəni ixtisasca həkim olan şairin şeirlərində bu sahə üzrə olan spesifik terminlərlə yanaşı bir şəfqətə, rəsam-şairin şeirlərində canlı portret öz əksini tapır, hüquqşünas-yazıçının əsərlərində hüququ bazadan bəhrələnən məqamlara rast gəlmək olur.

Poeziyamızın müqtədir ağsaqqalarından olan tanınmış Azərbaycan şairi Fikrət Sadıq gənc çağlarında elektirik (montyor) işlədiyindən, onun əsərlərində işığa, işıqla bağlı terminlərə tez-tez rast gəlmək olur. Bir az təvazödən uzaq olsa belə, elə mən özüm də yəqin ixtisasca iqtisadçı olduğumdandır ki, istər şeirlərimdə, istərsə də publisistik yazılarımda həcm göstəricilirənə, simmetriya qaydalarına, yığcam yazıda daha geniş fikir ifadə etməyə çalışıram (alınıb-alınmadığını təbii ki, oxucu daha yaxşı görə bilər)...

Barəsində söz açmaq istədiyim sənət adamı-şair də, ixtisasca həkim olmaqla, uzun illər "Hipokrat adnı" səviyyəsində insanların sağlamlığı keşiyində dayanmış, el-oba içində dərin hörmət qazanmış, eyni zamanda da kövrək könül dünyasından boy almış gözəl şeirləri ilə oxucuarının ürəyini fəth edə bilmiş həkim-şair Zakir Ağdamlıdır.

Zakir Əliyev 1946-cı ilin oktyabr ayının 19-da-qızıl payızda dilbər Qarabağımızın gözəl guşələrindən olan Ağdamın Papravən kəndində dünyaya göz açıb. O, yeddiiilik təhsilini öz doğma kəndlərində, onbirillik tam orta təhsilini isə 1964-cü ildə qonşu Boyəhmədli kəndində müvəffəq qiymətlərlə başa vurmuşdur.

Gənc Zakir iki il dalbadal ali məktəbə daxil olmaq üçün verdiyi imtahanlarından qiymət alsa da, müsabiqədən keçə bilməmiş, 1966-cı ildə isə müvəffəq qiymətlərlə Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (İndiki Azərbaycan Tibb Universiteti) müalicə-profilaktika fakultəsinə daxil olmuşdur.

O, tələbəlik illərində xüsusi fəallığı ilə seçilmiş, ağır İnstitut proqramını yetərincə mənimsəməklə yanaşı, ali təhsil müəssisəsinin ictimai işlərində yaxından iştirak etməklə- qrup komsomol təşlilat katibi də seçilmişdir.

Zakir Əliyev hələ tələbəlik illərinin son kurslarından əmək fəaliyyəti ilə məşğul olmağa başlamış, tədris zamanı öyrəndiklərini Semaşko adınına Bakı şəhər xəstəxanasında "tibb qardaşı", Zabrat qəsəbəsindəki 21 saylı şəhər poliklinikasında isə sahə həkimi qismində praktik olaraq tətbiq etmişdir.

O ali tibb təhsilini 1972-ci ildə uğurla başa vurduqdan sonra, Ağdərə (Mardakert) rayonunun Çaylı kənd xəstəxanasının baş həkimi tyin olunmaqla, elə orada yarımştat cərrah vəzifəsini də yerinə yetirmişdir.

İki il sonra, 1974-cü ildə Ağdan rayon Mərkəzi xəstəxanasının terapiya çöbəsinə həkim vəzifəsinə təyinat alan gənc həkimə bir il sonra daha böyük ehtimad göstərilərək, həmin şöbənin müdiri vəzifəsinə təyin olunmuş və o bu şöbəyə 1994-cü ilə qədər - nə az nə çox, düz 19 il rəhbərlik etmişdir.

Zakir Əliyev əmək fəaliyyəti dövrüdə də ictimai işlərdən kənarda qalmamış, o, Ağdam rayon mərkəzi xəstəxanasının İlk partiya təşkilat katibinin müavini, Xalq Nəzarəti Qrupunun sədri və rayon Xalq Nəzarəti Komitəsinin səhiyyə, maarif və mədəniyyət şöbəsinə də rəhbərlik etməklə, bu kimi məsul ictimai işlərin icrasını həyata keçirmişdir.

Zakir həkim bu illər ərzində SSRİ və Azərbaycan Respublikası Səhiyyə nazirliklərinin, əməkdaşı olduğu rayon səhiyyə müəssisəsinin, habelə SSRİ "Qırmızı xaç" və "Qırmızı Aypara" Cəmiyyətlərinin müxtəlif naminasiyalı təltiflərinə layiq görülmüşdür...

Azərbaycan xalqının ağrılı yeri olan dədə-baba torpağımız Qarabağın, o cümlədən Ağdamın da məmfur qonşularımız tərəfindən işğal olunması nəticəsində yüz minlərlə məcburi köçkün sırasında yer almış Zakir həkim 1994-cü ildən Bakı şəhərində məskunlaşmaqla, 1994-1998-ci illər ərzində Binəqədi rayonundakı 15 və 25 saylı poliklinikalarda sahə həkimi vəzifəsində öz həkimlik fəaliyyətini davam etdirmişdir.

Uşaqlıqdan poeziya vurğunu olan Zakir, hələ gənc çağlarından özü də arabir şeirlər yazmağa başlamışdır.

Şeirləri müxtəlif mətbu orqanlarında mütamadi olaraq nəşr olunan Zakir Ağdamlı iki - "Qəlbimin aynası" (1999) və "İlahi, dağlara qovuşdur məni" (2011) adlı şeir kitablarının müəllifidir.

Şairin "İlahi, dağlara qovuşdur məni" kitabı qarşımdadır. Mən bu kitabı təkrar-təkrar vərəqləmiş və orada yer almış bəzi şeirləri dəfələrlə oxumuşam.

2011-ci ildə "ŞUR" nəşriyyatında işıq üzü görən "İlahi, dağlara qovuşdur məni" kitabı 200 fiziki səhifədən, 12.5 şərti çap vərəqindən ibarət olmaqla, yeddi - "Əzəldən mənimçün sirdi bu dünya", "Qəlbi bağlı bülbülüyəm o dağların, bu dağların", "Nəğməli bülbüldün, ətirli güldün", "Rəsul Allahından istəsə əgər, daşın üstündə də çiçək bitirər", "Adlı-ünvanlı şeirlər", "Torpaq nisgilli, yurd həsrətli", "Gələcəyəm, qarabağım" - bölmədən ibarətdir.

Kitaba "Yana-yana yaşayan ovqat şairi" sərlövhəli ön söz yazan şair-publisist Eldar İsmayıl - "Zakir Ağdamlının şeirləri həsrət, nisgil üstə köklənmiş... və ...şairin poetik düşüncələri təbiidir, yadda qalandır."-yazır.

Eldar İsmayıl öz yazısında Xalq şairi Məmməd Arazın Zakir Ağdamlının şeirlərinə yazdığı kiçik - "Zakir Ağdamlı həkimdir. Həkim sənəti insana poeziya sənəti qədər yaxındır. Həkim də insan qəlbinə "boylanır", şair də. Poetik söz də dərman olur, qeyri- poetik həkim məsləhəti də. Zakir Ağdamlının, necə deyərlər, avazı xoşuma gəlir..." - rəyinə də yer ayırmışdır.

Zakir Ağdamlının şeirləri başdan-başa səmimi sevgi hopmuş sətirlərdən ibarətdir. Bu sevgi-ana sevgisi, Vətən sevgisi, yurd sevgisi, insana sevgi, təbiətə sevgi, qadın sevgisi,.. ən başlıcası isə İrfani sevgidən ibarətdir.




Şairin ana ünvanlı şeirini oxuyanda, göz önündə fədakar bir ananın avtoportreti canlanır. O ananın ki, ilin fəsillərindən aslı olmayaraq, öz ömrünü çıraq tutub övlad gözünə.

***...Adı Gülçöhrəydi, lap yaranışdan,***
***Adına bənzərdi davranışı da.***
***Əziyyət çəkmədik soyuqdan, qışdan,***
***Yaza çevirdi o qarlı qışı da...***

Şair yuxarıdakı şeir parçasında həyatında önəmli rolu olan bir insanın ANA-QADINın avtoportretini böyük məhəbbətlə verdiyi halda, aşağıdakı şeir parçasında isə təmiz hisslərlə münasibət bəslədiyi GÖZƏLin-QADINın simasını çox böyük poetik duyğularla vəsf edə bilmişdir.

O da sevgi, bu da sevgi...

***...Sənə düzdə bitən laləmi deyim,***
***Yoxsa dağda bitən tər bənövşəmi?***
***Nəfəsin ətirli bahar havası,***
***Gülüşün-güllərin şehi, şəbnəmi...***

Bildiyimiz kimi, ovqat insan ruhunun monometridir. Bəzən ovqatımızın haldan-hala düşməsinin, sevinclə və ya qəmlə yüklənməsinin fərqinə vara bilmədiyimiz halda, Zakir Ağdamlı ovqatın "tərif"ini - əgər belə demək olarsa - özünəməxsus bir şəkildə verə bilmişdir ki, bu da məncə onun həkimliyindən irəli gələn bir amildir.

***Ovqat elə şeydir, baş açmaq olmur,***
***Birdən çoxa, birdən aza köklənir.***
***Ovqatın baxçası saralmır, solmur,***
***Zilə, bəmə-hər avaza köklənir...***

Şair müşahidə etdiyi, bu və ya digər hadisələrə də laqeyid qala bilmir, bunları özünəməxsus bir formada nəzmə çəkir.

***...Dadanmısan bala, yağa,***
***Xərcləyirsən sola-sağa.***
***Toyda nə var şadlanmağa,***
***Yas yerində gül, görüm də!..***

və ya,

***Dalda giley, üzdə hörmət,***
***Pul sayılır bizdə hörmət.***
***Qalmayıbdı sözdə hörmət,***
***Bu halətdən incimişəm...***

Məncə, şərhə ehtiyac yoxdur...

***Turşu şirinə qatdı,***
***Bu da belə həyatdı.***
***Ömür bir hesabatdı,***
***Ömürdən keçən illər...***

Şair 60 illik yubilyini bax belə təqdim etmişdir...

Yuxarıda qeyd edildiyi kimi, Zakir Ağdamlı öz Vətənində məcburi köçkün həyatı yaşayan soydaşlarımızdan biridir.

Onun şeirlərində Vətən nisgili, torpağ həsrəti, doğulub, boya-başa çatdığı yurda olan sevgi, geniş məvhumda Qarabağ sevgisi qabarıq şəkildə təcəssüm olunur.

***Gah bir dağam, başı qarlı,***
***Gah da çənəm, yüz çalarlı.***
***Bülbül təki intizarlı,***
***Quşam Vətən torpağında.***

və ya,

***...Ağdam mənə bir döyünən ürəkdir,***
***Ağdam mənə hava, su tək gərəkduir.***
***Ağdam mənə qəndir, duzdur, çörəkdir.***
***Şuşam məmim, qədim şəhər, qalam, oy,***
***Həsrətinlə neçə ildi lalam, oy!***

deyir şair.

Məndə yaranan təəsürata görə, şair Zakir Ağdamlının şeirlərində hiss olunan bu böyük sevgi, onun Ulu Yaradana olan Ali sevgisinin tərkib hissəsidir.

***Eşqinlə qaynadı qanım,***
***Hicrinlə alışdı canım.***
***Sənsən küllü Yaradanım,***
***Min bir adlı gözəl Allah,***
***La İlahə İlləllah!.. 87***

Zakir Ağdamlının "İlahi, dağlara qovuşdur məni" kitabına "Son söz əvəzi" yazan şair Musa Ələkbərli - "Öz dərdlərini dünyanın dərdlərinə qarışdırıb yazır Zakir Ağdamlı, bir fərdin kədərini, qüssəsini hamınınki eləməyə çalışır və çox zaman da buna nail ola bilir"- deyə xarakterizə edir onun yaradıcılığını...

Zakir müəllim təkcə şair, həkim, ictimai proseslərin fəal iştirakçısı deyil, o həm də gözəl ata, nümunəvi ailə başçısı, qayğıkeş baba, etibarlı insan, dostluqa dəyər verən, ləngərli, öz yerini bilən əsil Azərbaycan kişisi və ziyalısıdır.

2016-cı ilin 19 oktyabr tarixində hörmətli həmkarım, yaxın dostum şair-həkim Zakir Ağdamlının 70 yaşı tamam olur. Və mən bu münasibətlə Zakir müəllimi aşağıda yer alan ünvanlı şeirimlə səmimiyyətlə təbrik edir, ona bolluca yaradıcılıq uğurları diləməklə, onun növbəti yubileylərini gözəl Qarabağda, Qarabağın ən gözəl guşələrindən olan Ağdamda keçirməyi və bu tədbirlərdə mənim də iştirak etmək imkanımın olmasını arzu edirəm, İnşallah! Amin!

***Ağdamda bir kənd var, adı-Papravənd,***
***Gözəl bir guşədə tutubdur o bənd.***
***Şəxsiyyət yetirib, bu kənd-neçəsin,***
***Bilmirsən hansını, necə seçəsin.***
***Elm sahəsində neçə əlaçı,***
***Müəllim, mühəndis, həkim, yazıçı...***
***Yetirib həm də o, bir şair-həkim,***
***Mülayim, mehriban-necə əl çəkim?!***
***Zakir Hüseyn oğlu, soy adı Əli,***
***Ən "ağır" cavabı, "xeyir" və "bəli"***
***Gülçöhrə anadan alıb təlimi,***
***Ürəyi təmizdir, özü səmimi.***
***Həkimtək şəfqəti baxışındadı,***
***Ahıllıq çağının ilk yaşındadı.***
***İllərlə o şəfa verib minlərə,***
***Ağsaqqal, ağbirçək, qız, gəlinlərə...***
***Qazanıb obada, eldə, hörməti,***
***Özünün hər kəsə var məhəbbəti.***
***Zakir Ağdamlı tək tanınır həm də,***
***Qarabağ ətri var şeirlərində.***
***"Getməz qulağımdan ana laylası"***
***Ağdamın işğalı, Papravənd yası.***
***"İlahi, dağlara qovuşdur məni",***
***Qovuşdur könlümlə doğma Vətəni.***
***"Əzəldən mənimçün sirdi bu dünya"***
***Bilmirəm ikidi, birdi, bu dünya?***
***Nisgildən gözümdə yaş da gilədi,***
***"Nə bilim", "Qəm məni şair elədi".***
***Doğma Ağdam, kəsilibdi yolların-***
***"Yollarına uzanıbdı qollarım".***
***"Ay ilam pərisi", "Ovqat" ver mənə,***
***Sənə "Qurban olum", mənə yox demə...***
***Bax belə şeirlər müəllifisən,***
***Muğam dünyasının xoş nəfəsisən.***
***Payızda haqladın şair, 70-i,***
***Gün olsun qeyd edək düz 115-i.***
***Fəxrəddin Meydanlı gəlsin təbrikə,***
***Bu ömür yoluna gül əkə-əkə...***

***Fəxrəddin MEYDANLI***




**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospe
"AZƏRBAYCAN" nəşriyyatı, 6
**Telefon: 538-05-50, 538-51-3**
**Faks: 539-80-2**
**adaletqezeti@ramb**



**Qəzetdə "Olaylar" və AP**
**məlumatlarından istifad**